Azərbaycan Respublikası energetika nazirinin
29 aprel 2025-ci il tarixli 3-15/3-2-246/2025
nömrəli Əmri ilə təsdiq edilmişdir

**Azərbaycan Respublikasının Energetika Nazirliyində bərabərlik hüququnun təmin edilməsi və ayrı-seçkiliyin qarşısının alınması məsələləri üzrə məsul şəxsin təyin edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə"nin 5.5.4-cü yarımbəndini rəhbər tutaraq

**əmr edirəm:**

1. Azərbaycan Respublikası Energetika Nazirliyinin Aparat rəhbərinin müavini Xalidə Məhəmməd qızı Məsimova Azərbaycan Respublikasının Energetika Nazirliyində bərabərlik hüququnun təmin edilməsi və ayrı-seçkiliyin qarşısının alınması məsələləri üzrə məsul şəxs təyin edilsin.
2. Ümumi şöbə bu əmrin surətinin Nazirliyin Aparatının bütün struktur bölmələrinə və tabeli qurumlarına çatdırılmasını təmin etsin.

*Əsas: Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2025-ci il 21 aprel tarixli 2-5/2-11532/2025 nömrəli məktubu və Daxili nəzarət şöbəsinin 2025-ci il 23 aprel tarixli 3-15/3-9-2053/2025 nömrəli xidməti məktubu.*

**Nazir** **Pərviz Şahbazov**